*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 52-56* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.52*

# Nurəngiz Günün publisistikası

**Bahar Məmmədova (Bərdəli)**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: baharmemmedova288@gmail.com

**Annotasiya.** XX əsrin sonuna doğru – 80-ci illərin axırı və 90-cı illər ölkəmizdə baş verən ictimai-siyasi hadisələr fonunda, yəni SSRİ adlı nəhəng imperiyanın çökməsi, süqutu, Müstəqillik uğrunda mübarizə, Yanvar hadisələri, Qarabağ müharibəsi, qaçqın-köçkün həyatı və s. məsələlər publisistikanın geniş inkişafı üçün imkanlar açdı. Portret oçerklər, məqalə-esselər xalq tərəfindən maraqla oxunur, qəbul edilirdi. Çünki bu yazılarda ictimai-siyasi hadisələr bu və ya digər dərəcədə geniş təhlil edilirdi. Odur ki, bütün yazarlar şeirlə yanaşı, publisistik məqalələrə də xüsusi önəm verirdilər.
Bu dönəmdə Nurəngiz Günün yaradıcılığında onun şeir-poemaları ilə yanaşı, bədii publisistikası da müəyyən qədər yer tutur. Yazar həyatda gördüklərini, müşahidə etdiklərini, düşündüklərini qələmə alaraq dövrü mətbuatda dərc etdirirdi. Bu mənada onun “Yaddaş”, “Türkdən Türkə nə “gözəl” qanlı uçuş...”, “Sonra Napoleon...”, “Uyu, şahanə, uyu, Qızıl quş, uyu” və s. məqalələri diqqəti çox çəkir. Bu məqalələrdə müəllif, Qarabağ hadisələrini, şəhidləri, şair, aktyor həyatını, onların sənətkarlığını axıcı bir dillə, səmimiyyətlə qələmə almışdır.
**Açar sözlər:** Nurəngiz Gün, bədii publisistika, “Yaddaş”, müstəqillik illəri, məqalə

**Məqalə tarixçəsi:** göndərilib – 04.11.2024; qəbul edilib – 26.11.2024

# Publicity of Nurangiz Gun

**Bahar Mammadova (Bardali)**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: baharmemmedova288@gmail.com

**Abstract.** Towards the end of the 20th century – the end of the 80s and the 90s, against the background of social and political events that took place in our country, that is, the collapse of the huge empire called the USSR, the struggle for independence, the January massacre, the Karabakh war, the life of turmoil and migration and etc. issues opened opportunities for the wide development of publicism. Portrait essays, articles and essays were read and accepted by the people with interest. Because social and political events were widely analyzed in these writings in one way or another. That's why all writers attached special importance to publicist articles along with poetry.
In this period, Nurangiz Gun’s creative work, along with his poems, also has a certain place in his artistic publicism. The writer wrote down what he saw, observed, and thought in life and published it in the press. In this sense, his “Memory”, “What a “beautiful” bloody flight from Turk to another Turk...”, “Then Napoleon...”, “Sleep, royal, sleep, Golden bird, sleep” etc. articles attract a lot of attention. In these articles, the author wrote down the Karabakh events, martyrs, poet, actor's life, their artistry in a flowing language and with sincerity.
**Keywords:** Nurangiz Gun, literary publicism, “Memory”, years of independence, article

**Article history:** received – 04.11.2024; accepted − 26.11.2024

## Giriş / *Introduction*

Keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərdə ölkəmizdə baş verən ictimai-siyasi hadisələr, yəni SSRİ adlı nəhəng imperiyanın çökməsi, süqutu, Müstəqillik uğrunda mübarizə, Yanvar hadisələri, Qarabağ müharibəsi, qaçqın-köçkün həyatı və s. məsələlər publisistikanın geniş inkişafı üçün imkanlar açdı. Başqa janrlara nisbətdə bədii publisistika daha tez, rahat yazılır və xalqa – geniş oxucu kütləsinə tez də çatdırılırdı. Portret oçerklər, məqalə-esselər xalq tərəfindən maraqla oxunur, qəbul edilirdi. Çünki bu yazılarda ictimai-siyasi hadisələr bu və ya digər dərəcədə geniş təhlil edilirdi. Odur ki, xalq arasında – Meydan hərəkatında bütün yazarlar şeirlə yanaşı, publisistik məqalələrə də xüsusi önəm verirdilər. Demək, bütün ədəbi nəsillər, ustad sənətkarlar bu janra müraciət etmiş, yazdıqlarını əvvəlcə qəzet-jurnallarda dərc etdirmiş, sonra isə kitab halında çap edərək xalqa çatdırmışlar. Həmçinin, Birinci Qarabağ müharibəsində həlak olan şəhidlər haqqında da kitablar çap edilmişdir. Bölgələrdə, Bakıda, Sumqayıtda şəhidlər artdıqca bu kitabların sayı, tirajı da artıb çoxalırdı.

## Əsas hissə / *Main Part*

Bu dönəmdə Nurəngiz Günün yaradıcılığında onun şeir-poemaları ilə yanaşı, bədii publisistika da müəyyən qədər yer tuturdu. Yazar həyatda gördüklərini, müşahidə etdiklərini, düşündüklərini qələmə alaraq dövrü mətbuata çıxartmışdır. Bu mənada onun “Yaddaş” məqaləsi diqqəti cəlb edir. 90-cı illərdə AzTV-nin ən uğurlu verilişlərindən biri olan “Yaddaş” ən çox keçmişə, tarixi kökümüzə, bir xalq olaraq keçib gəldiyimiz illərə işıq salırdı. Repressiya olunan şair-yazıçıların adlarını, əsərlərini xarici ölkələrdən tapıb gətirir, televiziya vasitəsi ilə xalqa çatdırırdı. Bu veriliş mənəvi itkilərimizin bərpası üçün çox iş görmüşdü.

Nurəngiz Gün “Yaddaş” məqaləsində bu televerilişin yaradıcı heyətinə, onların işıq saldığı mövzulara yüksək qiymət vermiş, əhəmiyyətinin də nə qədər böyük olduğunu bir daha vurğulayaraq geniş oxucu-tamaşaçı auditoriyasına təqdim etmişdir. Məqalə sərbəst şeirə bənzəyir. Öz axıcılığı, oxunaqlığı, dilinin şirinliyi ilə fərqlənir və diqqəti çox çəkir: “Estetik baxımdan sanki tamamlanmış cəlbedici rəssam tablosunu əks etdirirdi “Yaddaş”. Bu isə indiki gözəllik kasadlığında yorğun gözlərimizin rahatlanmasına cavab kimi idi. Gözəl şeydi bu gözəllik. Dünyanın bəzəyidir. Amma dünyanı xilas etməyə o kövrəkdir, gücü çatmaz. Dünyamızın bir xilası var – o da vicdan!” [4, s.122] “Dünyanı gözəllik xilas edəcək!” məşhur kəlamın əleyhinə çıxan müəllif haqlı olaraq göstərir ki, gözəllik çox kövrəkdir, zərifdir, məhvəri dağılmış dünyanın düzəlməyinə gücü çatmaz. Dünyanı yalnız ədalətli, təmiz vicdanlar xilas etməlidir. Başqasının var-dövlətinə, torpağına göz dikənlər, onları ölkəsindən, yerindən-yurdundan didərgin salanlar məhv edilməlidir. Axı bu bəyaz qəbirdə yatan Almaz İldırımın nə günahı vardı? O ki, həmişə şeirlərində Vətənini tərənnüm etmişdir.

90-cı illər bütün sahələrdə yaddaşın oyanması üçün əlverişli zəmin yaranmışdı. Çünki artıq müstəqil bir dövlət kimi öz yoluna davam edən respublikamız öz yaddaşını silkələməli, hər şeyi saf-çürük edib təmizləməli və öz yerinə qoymalı idi.

“Türkdən Türkə nə “gözəl” qanlı uçuş...” [7] məqaləsi də Azərbaycan-Türkiyə birliyini dəstəkləmək üçün eyni ahənglə, eyni ürəklə, tam səmimiyyətlə yazılıb. Məqalə yazıçı, “Ədalət” qəzetinin baş redaktoru Aqil Abbasa müraciətlə yazılsa da, əslində müəllif zamanla qəlbinə yığılıb qalmış fikirlərini, düşüncələrini öz oxucuları ilə bölüşür. Müstəqil Respublikamız yaranan kimi bizi ilk tanıyan ölkə qardaş Türkiyə oldu. Bu danılmaz faktdır. Bütün sahələrdə – istər siyasətdə, hərbdə, istərsə də iqtisadiyyatda, mədəniyyətdə Türkiyə dövləti və xalqı bizimlə idi. Gücü çatdığı, yetdiyi qədər kömək etməyə çalışırdı bu dövlət. Lakin çox maraqlı bir nüans da boy verməyə başlamışdı. Bu zaman kəsiyində “Türkün bizə

nə xeyri var?” – deyənlər də vardı. Məhz bu qardaşlığı, dostluğu qısqananların cavabı məqalədə yetərincə əks olunub. Nurəngiz Gün məqalədə tarixi faktlarla, həmçinin eşitdiyi, bildiyi hadisələrlə Azərbaycan–Türkiyə birliyini dəstəkləyir. Yazıçı düşünür ki, Böyük Atatürkün qurduğu dövlət bizimlədirsə, bizə arxadayaqdırsa, bu bizim qələbəmizdir.

“Uyu, Şəhanə, uyu, Qızıl quş, uyu” [8] məqaləsi çağdaş Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, Xalq şairi Xəlil Rza Ulutürkün ölümünə həsr olunub. Məqalə şair ölümünə bir ağıdır, elegiyadır – desək, daha dəqiq olar: “Uyu, daha uyu, şair, uyu! Vətən aşiqi, ey ozan, uyu, uyu dərviş, uyu insan, uyu divanə şair... Çiçəklərin solmasın, hər gün quşlar oxusun sənin axşam duanı...” [8, s.447]

Xəlil Rza ədəbiyyat adamı, söz adamı idi. Bir vaxtlar Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu bitirmiş, əsərlərində Böyük SSRİ-ni, Moskvanı, Sovet dövlətini tərənnüm də etmişdi. Rus şair-yazarları ilə dostluq da edirdi. Lakin ömrünün sonuna az qalmış bu cəmiyyətlə, onun ordusu, siyasəti ilə döyüşməli oldu. Çünki bu cəmiyyətə, dövlətə olan ümidi, inamı sarsılmış, məhv edilmişdir. Ona görə, şair vətəni üçün, xalqı üçün döyüşməli oldu və döyüşdü. Zindanda yatdı, döyüşdü. Azad oldu, döyüşdü. Oğlunu Vətənə qurban verdi, döyüşdü. Bu gün aramızda, sıramızda olmasa da sözü, əsərləri ilə döyüşür. Nurəngiz Gün məqaləsində bütün bunlara bir daha nəzər salır: “Bu nə halət? Türküləri, şərqiləri qoyub sən hara köç etmisən? Bu məzlum türbə-daş içrə nə susqun düşüb əfsarın? Yoxsa sarsıtdı səni o sarp enişlər, yoxuşlar? Həqarətmi gəldi sənə qollarının qandalı?...” [8, s.144]

Xəlil Rza haqqında onlarca məqalələr, kitablar, dissertasiyalar yazılıb. Akademik Bəkir Nəbiyev “Şair ömrü-vətəndaş məramı” adlı məqaləsində yazır: “Xəlil Rzanı xalq tribunu kimi fəaliyyətinin əsas hədəfi son illərini yaşamaqda olan, ömrünü uzatmaq üçün daha da amansız vasitələrə əl atan rejim idi. Şair istirahət etmədən bir tədbirdən o birinə, bir meydandan o birinə gedirdi. “Xalqlar həbsxanası”nın şöhrətini qoruyub saxlamış imperiyanın daşını daş üstündə qoymurdu...” [3, s.50]

Xəlil Rza haqqında bu tip məqalələr yetərincə yazılıb. Lakin Nurəngiz Günün bu kiçik yazısı böyük şair haqqında yazılmış ilk elegiya, yəni şairin şair haqqında yazmış olduğu ilk esse-elegiya idi.

“Şirlər, aslanlar ağlamaz” [6] məqaləsi Bakının Binəqədi Polis idarəsində işləyən Hafiz Şiraslan oğlu Ağdamlıya həsr olunub. Hafiz Qarabağda döyüş başlayandan cəbhədə olub, dəfələrlə yaralanıb, sağalan kimi yenə cəbhəyə – döyüşməyə qayıdıb, onlarla düşmən tankını məhv edib. Son döyüşü Tərtərin Qafanlı kəndində baş verib. Düşmən tankını yandırandan sonra sağ qalan erməniləri güllələyərkən özü də düşmən gülləsinə tuş gəlib. “Bu susqun tabut onunkudur. Bu tabutun üstündə heç bir fəxri medal-metal cingildəmir. Amma onun üstünə zəif, güclə eşidiləcək, kirimək bilməyən bir sızıltı sərilib. Tanıyın bu titrək səsi də. Bu, İkinci Cahan müharibəsində döyüşmüş qoca veteran, kəndin ağsaqqalı, şəhid Hafizin, Müzəffərin, Yalçının pirani atasıdır... Başını ixtiyarsız yelləyərək yalnız bunu deyir: “Haqsız dünya”...” [6, s.149]

Müəllif bədii publisist dillə bir igid döyüşçünün həyatını, döyüşlərini təsvir edərək, onun bədii obrazını yarada bilib. Yazar haqlı olaraq göstərir ki, atası Şiraslan olanın oğlu da comərd, qəhrəman olmalıdır. “Ağlama, Şiraslan kişi, şirlər, aslanlar ağlamaz! Bir bax, üzərində Hafizin əlləri gəzən ağaclar belə ağlayır... Bu Ceyran ananın ruhudur, ağaclardan süzülüb budaqlarda ah çəkir! Bu ah yerdə qalmaz, baba, billah qalmaz!” [6, s.152]

Filologiya elmləri doktoru Elçin Mehrəliyev “Müharibə və ədəbiyyat” adlı monoqrafiyasında publisistikanın iki xarekterik cəhətini qeyd edir: “Birincisi, yazarlarımız torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə canlarını qurban vermiş Vətən oğulları haqqında dövri mətbuatda müntəzəm çıxışlar etmiş, ayrı-ayrı bölgələrdə baş vermiş qanlı döyüşlər, faciələr, habelə həmin bölgələri təmsil edən şəhidlər haqqında kitablar çap etmişlər.

İkincisi, müharibə ilə bağlı problemlərin təsvirində xroniki ardıcıllığın qorunub saxlanması fakt və hadisələrin olduğu kimi verilməsidir. Bu dövrdə gündəliklər, qeydlər, xatirələr xüsusilə üstünlük təşkil edirdi” [2, s.119-120].

“Qəm leysanı” kitabında göstərilir: “Əksəriyyəti 90-cı illərin əvvəllərində qəm leysanına çevrilərək yurdun daşlarına, sal qayalarına

səpələnmiş insanların nakam talehindən teleqraf üslubu ilə söz açılır...” [1, s.20]

Demək, Şəhidlik mövzusu 90-cı illər publisistikasından qırmızı xətt kimi keçir və aparıcı mövzuya çevrilir. Təbii ki, vətənpərvər, yurdsevər şair, nasir, publisist olan Nurəngiz Günün də publisistikasında əsas yeri şəhidlər və onların qəhrəmanlıqları tutmalı idi: “Tanıyın! Hafiz Şiraslan oğludur! Haqq döyüşümüzdə ilk düşmən kəndinin alınmasında, ilk qələbə bayrağının torpağa sancılmasında hünərvər o olmuşdur! [6, s.148]

“Yox, yoxdur o türklər, bu türklər...” məqaləsində Nurəngiz Gün türkləri hissələrə, bölgələrə bölənlərə qarşı bir üsyan qaldırır. Müəllif yazır: “Tək türklərik... yalnız Allaha təslimik... Eşqini əsirgəməsin üzərimizdən...” [6, s.156]

“Sonra Napoleon...” məqaləsi aktyor Fuad Poladova, onun sənətkarlığına, yaradıcılığına həsr olunub. Keçən əsrin 80-90-cı illərində əsrarəngiz səsi ilə tanınan Fuad Poladov bir aktyor kimi xalqın sevimlisinə çevrilmişdi. Ən böyük obrazı “Napoleon” tamaşasında oynadığı Napoleon obrazı idi. Obrazı o qədər yüksək şəkildə oynamışdı ki, hər kəs onu Napoleon çağırırdı. Tamaşaya baxan Nurəngiz Gün onu belə təsvir edir: “Budur, çırpınır o! Sərkərdə! Çırpınır sənətkar! Ucaldır Bonapartı, saflaşdırır, gözəlləşdirir, bütün hüceyrə-siniriylə...” [3, s.159]

Səhnədə böyük sərkərdə olan sənətkar həyatda çox sadə, kasıb biri idi. Tamaşadan çıxıb evə gələndə yazarın nəvəsi qışqırır: - Nənə, bax, Napoleon avtobusa minir!

Nurəngiz Gün məqalənin sonunda öz oxucularını düşündürür: “Görəsən, ağır tamaşadan sonra ayaqüstə avtobusla evinə gedən sənətkarın halı necə olacaq?!”

## Nəticə / *Conclusion*

Biz Nurəngiz Günün publisistikasına bir nəzər saldıq. Şair, yazıçı olan N.Gün, eyni zamanda bədii publisistika ilə də yaradıcılığını zənginləşdirib. Ən çox öz dövrünü əks edirən yazar qarşılaşdığı, gördüyü, şahidi olduğu, düşündüyü mövzuları qələmə alıb. O, Qarabağ hadisələri, şəhidlər haqqında, Türk dünyası, onun əleyhdarları haqqında, sevdiyi aktyorlar, şairlər, onların həyatı, sənətkarlığı haqqında maraqlı, düşündürücü bədii yazılarla öz oxucularını sevindirib. Axıcı, bədii bir dillə, özünəməxsus şəkildə yazılmış bu esse-məqalələrin mövzu dairəsi, göründüyü kimi, müxtəlif və rəngarəngdir. Bu əsərlər həm yazarın yaradıcılığında, həm də ədəbiyyatımızda önəmli bir yer tutur.

## Ədəbiyyat / *References*


1. İmanzadə, İ., Abbaslı, T. Qəm leysanı. Publisistika. – Bakı: Yeni nəşrlər evi, 1999.
2. Mehrəliyev, E. Müharibə və ədəbiyyat. – Bakı: Azərnəşr, 2000. – 228 s.
3. Nəbiyev, B. Şair ömrü-vətəndaş məramı. Seçilmiş əsərləri, III cild. – Bakı: Çinar-Çap, 2009. – 616 s.
4. Nurəngiz Gün. “Yaddaş” işığında düşüncələrim. Nurəngiz Gün. Povestlər, hekayələr və məqalələr. – Bakı: Vektor nəşrlər evi, 2004. – 170 s.
5. Nurəngiz Gün. Sonra Napoleon... Nurəngiz Gün. Povestlər, hekayələr, məqalələr. – Bakı: Vektor nəşrlər evi, 2004. – 270 s.
6. Nurəngiz Gün. Şirlər, aslanlar ağlamaz. Nurəngiz Gün. Povestlər, hekayələr, məqalələr. – Bakı: Vektor nəşrlər evi, 2004. – 170 s.
7. Nurəngiz Gün. Türkdən türkə... Nurəngiz gün. Povestlər, hekayələr, məqalələr. – Bakı: Vektor nəşrlər evi, 2004. – 170 s.
8. Nurəngiz Gün. Uyu, şəhanə şair, uyu, qızıl quş, uyu. Nurəngiz Gün. Povestlər, hekayələr, məqalələr. – Bakı: Vektor nəşrlər evi, 2004. – 170 s.

## Публицистика Нурангиз Гюн

**Бахар Мамедова (Бардали)**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: baharmemmedova288@gmail.com

**Резюме.** К концу 20 века – в конце 80-х и в 90-х годах, на фоне общественно-политических событий, происходивших в нашей стране, то есть распада огромной империи под названием СССР, борьба за независимость, Январская трагедия, Карабахская война, жизнь беженцев и вынужденных переселенцев и другие проблемы открыли возможности для широкого развития публицистики. Портретные и другие очерки, статьи с интересом читались публикой. Потому что в этих произведениях в той или иной степени широко анализировались общественно-политические события, и все писатели наряду с поэзией придавали особое значение публицистическим статьям.

В этот период в творчестве Нурангиз Гюн, помимо поэзии, определенное место также занимает художественная публицистика. Писательница, наблюдая за происходящим в жизни, записывала свои мысли и впечатления, публикуя их в периодической печати. В этом контексте ее статьи «Воспоминание», «От турка к турку – какой «красивый» кровавый полет...», «Затем Наполеон...», «Спи, великолепная, усни, Золотая птица, усни» и др. привлекают большое внимание. В этих статьях автор с искренностью и живым языком описала события Карабаха, шехидов, жизнь поэтов и актеров, их творчество.

**Ключевые слова:** Нурангиз Гюн, художественная публицистика, «Память», годы независимости, статья